## 050121 – “Xarici dil müəllimliyi (ingilis dili)” ixtisasının qısa təsviri

Xarici dil müəllimi (ingilis dili) xarici dilin fonetika, lüğət və qrammatika sahələrində və eləcə də ixtisas ölkəsinin ədəbiyyatını təhsil alanlara öyrədən müəllimdir. Bu ixtisasa sahib olan mütəxəssis İngilis dilini mədəniyyətlərarası ünsiyyət vasitəsi olaraq, Azərbaycan və dünya mədəniyyətinin nailiyyətlərini öyrənmək yolu kimi öyrədir, tələbələri fərqli bir dünyagörüşünün tolerant qavrayışına, yəni mədəniyyətlərin bərabərhüquqlu və bərabərliyini, ümumbəşəri dəyərlərin mövcudluğunu öyrənməyə hazırlayır. Xarici dil müəllimliyi (ingilis dili) ixtisası üzrə təhsil proqramını mənimsəyən məzunlar İxtisas bilklərindən əlavə həm də aşağıdakı bir sıra ümumədəni və peşə kompetensiyalarına (səriştələr) yiyələnirlər:

- Kollektivdə öz həmkarları ilə birlikdə işləməyi, optimal qərarlar qəbul etməyi bacarmaq, idarəetmə metodlarına yiyələnmək;
- Yeni ideyalar irəli sürmək və əsaslandırmaq;
- Mədəniyyətlərarası dialoqa hazır olmaq;
-Beynəlxalq arenada işləmək;
- Problemli şəraitdə təşəbbüskarlıq göstərmək;
- Tənqid və özünütənqidə dözümlülük göstərmək;
- Peşə fəaliyyəti sahəsinə aid olan fənlərin əsas problemlərini bilmək və konkret şəraitdə tətbiq etməyi bacarmaq;
- Şagirdlərin müəyyən qruplarına rəhbərlik etməyi bacarmaq.

Bu ixtisas üzrə bakalvr dərəcəsini almaqla orta ümumtəhsil məktəblərində, müxtəlif tədris mərkəzlərində və hazırlıq kurslarında, liseylərdə, orta ixtisas təhsili müəssisələrində (kolleclər), magistr dərəcəsini almaqla isə həm də universitetlərdə xarici dil (ingilis dili) müəllimi kimi işləyə bilrsiniz. Bu ixtisasa yiyələnənlər eyni zamanda xarici dilldə jurnalistika fəaliyyəti ilə məşğul ola bilər, habelə KİV sahəsində öz bacarıqlarını nümayiş etdirə, həmçinin əgər tərcüməçiliyə marağı varsa tərcüməi kimi də işləyə bilərlər. İxtisas üzrə təhsil proqramının normativ mənimsəmə müddəti 4 ildir.